Knyaz ASLAN

Knyaz Aslan (Knyaz İlyas oğlu Aslanov) Borçalı mahalının Başkeçid bölgəsinin Hamamlı kəndində anadan olub.

Orta məktəbi Qızıl medalla, Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya və Jurnalistika fakültələrini, Azərbaycan Jurnalist Sənətkarlığı İnstitutunu fərqlənmə diplomları ilə bitirib.

N.Gəncəvi, H.Zərdabi, Ö.Faiq, M.Şəhriyar, S.Yesenin, "Büllur qələm", "Qızıl Qələm", "Qızıl Saz", "Qızıl Kitab", "Peşəkar Jurnalist", "Kamil Söz Ustası" və başqa ədəbi mükafatlar laureatıdır.

Azərbaycan Yazıçılar Birliyinin, Jurnalistlər Birliyinin və Aşıqlar Birliyinin üzvüdür.

Bakı Dövlət Universitetinin və Xəzər Universitetinin dosenti, pedaqoji elmlər namizədidir.

Qarabağ müharibəsi veteranıdır.

Bir neçə elmi, publisistik və bədii kitabın müəllifidir.

Şeirləri rus, ingilis və alman dillərinə tərcümə olunub.

## Səadət

*Bu torpağın çəməni min, çölü min,*
*Hər nəğməsi bir dastandır dilimin.*
*Saf ürəkli, duz-çörəkli elimin*
*Şanısına bal olmağım -*
*səadət!..*

*Şeir-sənət qalasıdır sinəm ki...*
*Ulu dünya, meydanında kiməm ki?!.*
*Öz səhvimə gərək özüm dinəm ki,*
*Deməsinlər, lal olmağım -*
*səadət!..*

*Gecə-gündüz ömür adlı yapıncı,*
*Yol gedirəm ümidimin dalınca...*
*Əllərimdə Koroğlumun qılıncı,*
*Babəkimə qol olmağım -*
*səadət!..*

*Od oğluyam - ulusum od əməndi,*
*Yandıraram həsrət qollu kəməndi...*
*Kişnərtisi dağ oynadan səməndin*
*Dırnağına nal olmağım -*
*səadət!..*

*Baxışlara qırov salıb ayazım...*
*Knyaz Aslan, at üstədir murazım:*
*Ürəyimi bölüb keçən Arazın*
*Sevincinə yol olmağım -*
*səadət!..*

## Vətən yağı əlində

**Ürəyim - titrəyən payız yarpağı,**
**Qopub düşəsidi - bir himə bənddi.**
**Yağılar əlində Vətən torpağı,**
**Hayana baxıram hər yan kəmənddi.**

**Göylərdə əlləşir adamlarımız,**
**Qarğışı yellənib fələyə düşür.**
**Ölçüsüz-biçisiz addımlarımız**
**Ölçülü-biçili taləyə düşür.**

**Biz tapa bilmirik haqqın ucunu,**
**Düşüb kələfimiz cin düyününə.**
**Əyib çiynimizi qeyrət xurcunu,**
**Həsrətik Vətənin toy-düyününə.**

**Quyular qazılıb yollarımızda,**
**Badalaq vuranın sayı bilinmir.**
**Qandallar paslanır qollarımızda,**
**Dünyanın payızı, yayı bilinmir.**

**Nəyi gözləyirsən, ay canım Vətən?..**
**İçindən-çölündən didirlər səni.**
**Bağına daş atır hər yoldan ötən,**
**Aşkarda-gizlində güdürlər səni...**

**And içib üçrəngli ulu bayrağa,**
**Əmrə müntəzirdir bu millət, bu xalq.**
**Bir çıx ətalətdən, bir dur ayağa,**
**Azadlıq yolunda ya çax, ya da qalx!..**



## Aldatdı məni

**Qanmazların dad əlindən,**
**Qələm uçdu təməlindən...**
**Özünün bəd əməlindən**
**Razılar aldatdı məni.**

**Yaydan çıxdım, qışa düşdüm,**
**Vallah, sonra başa düşdüm...**
**Haçan müşkül işə düşdüm,**
**Qazılar aldatdı məni.**

**Əl vermədim əyilənə,**
**Kömək oldum döyülənə.**
**İnanmadım deyilənə,**
**Yazılar aldatdı məni.**

**Qılıncladım "bəlkə"ləri,**
**Kölgə oğlu kölgələri,**
**Tez tanıdım tülküləri,**
**Tazılar aldatdı məni,**

**Çıxdım vecsiz oyunlardan,**
**Qaçdım yoğun boyunlardan...**
**Çox qorundum qoyunlardan,**
**Quzular aldatdı məni...**

## Nə ləzzəti

Dağa çıxsan - dağlar səni
Söylətməsə nə ləzzəti?!
Göy çəmənlər, bağlar səni
Köyrəltməsə nə ləzzəti?!

Xatirədir boz yaylaqlar,
Sərt qayalar, düz oylaqlar...
Dişlərini buz bulaqlar
Göynətməsə nə ləzzəti?!

Görməsən quş gözlərini,
Ceyran-cüyür izlərini...
Dik yoxuşlar dizlərini
Göyərtməsə nə ləzzəti?!

Kəklik uçsun sağ-solundan,
Cığırlar tutsun qolundan,
Bülbül səni öz yolundan
Əylətməsə nə ləzzəti?!

Knyaz Aslan, sev elatı,
Dağ qoşmadır, bağ bayatı!..
Dağlar sənə dağ həyatı
Öyrətməsə nə ləzzəti?!

## Borçalı

***Harda olsam üz tutduğum qibləmdi,***
***Yerin-göyün qaşındadı Borçalı!***
***Səcdəgahım, Pirim, Məkkəm, Kəbəmdi,***
***Müqəddəslik tuşundadı Borçalı!***

***Duasıdı çörəyimin, suyumun,***
***Havasıdı şənliyimin, toyumun...***
***Köçgünümün, sürgünümün, soyumun***
***Yaddaşında, huşundadı Borçalı!***

***Nağıllanıb aşıqların sazında,***
***Sığallanıb gözəllərin nazında...***
***Sevincimin baharında, yazında,***
***Kədərimin qışındadı Borçalı!..***

***Şöhrətimdi Başkeçidim, Bolusum!..***
***Qarayazım, Qaraçöpüm - ulusum!..***
***Öz adımdı ulu torpaq, ulu su!..***
***Qoca dünya yaşındadı Borçalı!..***

***Min il keçsin - məhəbbətim azalmaz!..***
***Yad felindən yurd ilqarım pozulmaz!..***
***Ünvanıma özgə Vətən yazılmaz,***
***Gözlərimin yaşındadı Borçalı!..***

***Varı-yoxu hey talanan Vətənin,***
***Sinəsində od qalanan Vətənin,***
***Qarış-qarış yağmalanan Vətənin***
***Torpağında, daşındadı Borçalı!..***

***Knyaz Aslan, qəlbə yağan qara bax!..***
***Vətən adlı viran qalmış vara bax!..***
***A qibləsiz, inanmırsan, ara, bax:***
***Ürəyimin başındadı Borçalı!..***

## *Kimdir*

Çox şirin olsa da sözü-söhbəti,
Hər yetənə vermə hər əmanəti.
Yoldaş namərdliyi, dost xəyanəti
Qəfildən sellənən yağış kimidir.

Yaman yalanına ağlayarmı göz?
Abrını itirər qızarmayan üz...
Yerində deyilən bircə kəlmə söz
Ürəyə od salan baxış kimidir.

Közü qalmayıbsa yanarmı ocaq?
Düzə söykənməsə dayanarmı dağ?
Dolu vuran bağça, sel aparan bağ
İlməsi qarışmış naxış kimidir.

Bayquş xislətidir gözləri oymaq,
Xəbərçi işidir hər sirri yaymaq.
Məhəbbət umanı həsrətdə qoymaq
Dizləri qatlayan yoxuş kimidir.

Knyaz Aslan, vermə ömrünü hədər,
Səni sarsıtmasın nə qəm, nə kədər;
Düşmənin xoş sözü ölümdən betər,
Dostların qınağı alqış kimidir!..

## *Başkeçidim*

**Yenə məni xatirələr**
**Bəndə saldı Başkeçidim!**
**Yarali bir ceyran mələr,**
**Bu nə haldı, Başkeçidim!**

**Perik düşdü quş yuvadan,**
**Köç başladı el-obadan.**
**Gül nənədən, Qoç babadan**
**Gör nə qaldı, Başkeçidim!**

**Kim yetirdi əmanəti?**
**Kim bitirdi xəyanəti?**
**Kim itirdi dəyanəti?**
**Kim alçaldı, Başkeçidim?**

**Mərd savaşar yurd uğrunda,**
**Yurd alışar mərd uğrunda.**
**Müxənnətlər el bağrında**
**Qara xaldı, Başkeçidim!**

**Çömçədüşən - saz qucağı,**
**Şamdüyədir söz ocağı.**
**Sənəkuçan, Şindi dağı**
**Pətək, baldı, Başkeçidim!**

**Knyaz Aslan sənsiz çağlar,**
**Barlı bağlar dil-dil ağlar.**
**El yığnaqlı dərdli dağlar**
**Səndə qaldı, Başkeçidim!**
**Bu nə haldı, Başkeçidim!**

## *Yaralanmasın*

*Uca Tanrım, səndən bir diləyim var:*
*Heç kəs diləyindən yaralanmasın!*
*Bir gülsüz, bülbülsüz qalmasın bağlar,*
*Çəmən çiçəyindən yaralanmasın!*

*Qartal qanadından, durna gözündən,*
*Ceyran ayağından, cüyür üzündən,*
*Dağ kəli döşündən, pələng dizindən,*
*Aslan biləyindən yaralanmasın!*

*Bülbül qan ağlayar boğulsa səsi,*
*Maralın buynuzu qırar qəfəsi.*
*Hədəfdən yan keçsin namərd gülləsi,*
*İgid kürəyindən yaralanmasın!*

*Ayrı yaranmamış nə xeyir, nə şər,*
*Həyat həm kədərdir, həm də ki, nəşə...*
*Atasız-anasız qalmasın bəşər,*
*Körpə bələyindən yaralanmasın!*

*Zirvəni buludsuz necə çəkim mən?!*
*Göydən ulduzları nə cür söküm mən?!*
*Knyaz Aslan deyər, ağac kökündən,*
*İnsan ürəyindən yaralanmasın!..*